**Tiraj açıqlamaları:**

· Lotereya Azərbaycan Respublikasının ərazisini əhatə edir.

· 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilər.

· Lotereya biletinin qiyməti uduş kateqoriyalarına görə fərqli ola bilər.

· Əlaqə telefonları: *2080 Əlaqə Mərkəzi · Lotereya biletlərinin satışı xüsusi yaradılmış satış məntəqələri, digər fiziki satış nöqtələri, mobil tətbiq, https://www.misli.az/, https://www.azerlotereya.com/, elektron ticarət platformaları və sair vasitələr ilə həyata keçirilə bilər. Uduş kateqroiyasına uyğun olaraq bütün satış kanalları üzərindən satılan biletlər həmin uduş kateqoriyası üzrə uduş fondunun formalaşdırılmasında iştirak edir.

· Lotereyanın uduş fondu əşyalardan formalaşdırılır. Hər bir uduşun dəyəri həmin uduş kateqoriyası üzrə satılmış biletlərin ümumi məbləğinin ən azı 50%-ini təşkil edir.

· Satılmış biletlər üzrə ləğvetmə nəzərdə tutulmur.

· Lotereya iştirakçısı satış məntəqələrində və sair satış nöqtələrində (o cümlədən, marketlər, köşklər, küçə satış məntəqələri) hazır bilet almaqla və ya lotereya terminallarından bilet çap edilməklə və ya Təşkilatçının idarə etdiyi veb-saytlarda və ya elektron biletlərin satılacağı başqa veb-sayt(lar)da, habelə mobil tətbiqdə qeydiyyatdan keçərək lotereya biletini (elektron kod) əldə edə bilər.

· Tiraj çəkilişi tarixi əvvəlcədən elan edilə və ya bilet satış tendensiyasına uyğun müəyyən edilə bilər. Tiraj çəkilişi tarixi bilet satış tendensiyasına uyğun müəyyən edildikdə, tiraj çəkilişi tarixi ən geci bu tarixə beş gün qalandək Təşkilatçının https://www.azerlotereya.com/ rəsmi internet səhifəsində və sosial şəbəkələrdə açılmış səhifələrində elan edilməlidir. Uduşun müəyyən edilməsi üsulu əvvəlcədən müəyyən edilir.

· Biletlər satışların bitməsi üçün nəzərdə tutulmuş gündən daha tez satılarsa və müəyyən edilən tiraj gününə beş gündən çox vaxt qalırsa, bir gün öncədən elan verilməklə tiraj tarixi qabağa çəkilərək tiraj daha tez oynanıla bilər. Belə hal olduqda Təşkilatçının https://www.azerlotereya.com/ rəsmi internet səhifəsində və sosial şəbəkələrdə açılmış səhifələrində 1 gün ərzində məlumat yerləşdiriləcəkdir.

· Hər uduş kateqoriyasına uyğun tiraj üçün biletlər ancaq həmin uduş kateqoriyası üçün nəzərdə tutularaq çap ediləcəkdir və ya generasiya olunacaqdır. Hər tiraj və uduş kateqoriyası üzrə bilet ancaq həmin uduş kateqoriyası və tiraj dövrü üzrə tiraj çəkilişində iştirak edə bilər. Eyni vaxtda bir neçə uduş kateqoriyası üzrə biletlərin satışı və tiraj çəkilişi həyata keçirilə bilər.

· Hər bir uduş bir biletə uyğun gəlir.

· Bir nəfər müxtəlif bilet nömrələri ilə birdən çox hədiyyə qazana bilər.

· Bir uduş kateqoriyasında tirajdan asılı olaraq uduş növləri fərqli ola bilər.

· Elan edilmiş kateqoriya daxilində uduş növünün satınalması ilə bağlı hər hansı gözlənilməz problem yaranarsa, həmin uduş növü üzrə tiraj çəkilişi ləğv edilir və lotereya iştirakçısı satış məntəqəsinə gələrək biletin dəyərini geri tələb edə bilər. Virtual mühitlərdə ləğv edilmiş biletlərin dəyəri lotereya iştirakçısının balansına qaytarılır. Belə hal olduqda Təşkilatçının https://www.azerlotereya.com/ rəsmi internet səhifəsində və sosial şəbəkələrdə açılmış səhifələrində məlumat yerləşdiriləcəkdir.

· Təşkilatçının İdarə Heyətinin qərarı ilə uduş fonduna (fondlarına) əlavə vəsait qoyula bilər və geri götürülə bilər.

· Hər yenilik və əlavələr haqqında Təşkilatçının https://www.azerlotereya.com/ veb-saytı və sosial şəbəkələr vasitəsilə lotereya iştirakçılarına əvvəlcədən məlumat veriləcək.

· Hər bir uduş kateqoriyası üzrə tirajın nəticələri haqqında məlumat uduşların oynanılmasından sonra ən geci bir gün ərzində Təşkilatçının https://www.azerlotereya.com/ rəsmi internet səhifəsində və/və ya sosial şəbəkələrdə açılmış səhifələrində yerləşdiriləcəkdir.

· Uduşlu lotereya biletlərinin qəbulu həmin tirajın uduş fondu oynanıldığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq başlayır və 150 (bir yüz əlli) təqvim günü ərzində davam edir. Uduş Təşkilatçı tərəfindən https://www.azerlotereya.com/ veb-saytında qeyd edilmiş ünvanda uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilir.

· Uduşların əvəzinə onların pul dəyərinin tələb edilməsinə yol verilmir.

· Uduşun alınması üçün lotereyanın qalibi etibarlılıq müddəti bitməmiş şəxsiyyət vəsiqəsini və uduşlu bileti (əgər çap edilmiş kağız biletdirsə) və ya etibarlılıq müddəti bitməmiş şəxsiyyət vəsiqəsini (əgər uduşlu bilet elektron biletdirsə) təqdim etməlidir.

· Uduşun alınması hüququ ancaq etibarnamə əsasında üçüncü şəxslərə həvalə edilə bilər (əgər uduşlu bilet elektron biletdirsə).

· Əgər uduşu qazanan şəxs https://www.azerlotereya.com/ və ya https://www.misli.az/ və ya digər satıcının elektron platformasında şəxsi kabinet sahibidirsə və uduşlu elektron bileti adı çəkilən veb-saytlarda əldə etmişdirsə, uduş ancaq şəxsi kabinet təsdiqləndikdən və ya qalibin şəxsiyyəti başqa üsulla müəyyən edildikdən sonra veriləcəkdir.

· Uduş qarşılıqlı imzalanan sənəd əsasında və qanunvericilikdə nəzərdə tutulmuş digər şərtlərə riayət edilməklə veriləcəkdir.

· Uduşlar qaliblərə verildikdən sonra uduşların zədələnməsi və onların istismarı halları ilə bağlı hər hansı bir riskə və zəmanət xidmətinə görə Təşkilatçı məsuliyyət daşımır.

· Əşya şəklində verilən uduşlar Vergi Məcəlləsinin 99.3.12-ci maddəsinə uyğun olaraq, qalibin qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərinə aid edilir və qalibin etdiyi pul qoyuluşu (biletin dəyəri) çıxıldıqdan sonra qalan məbləğ (əşyanın dəyəri) Vergi Məcəlləsinin 101.2-ci maddəsinə əsasən 14 faiz dərəcə ilə vergiyə cəlb olunur və qalib tərəfindən bəyannamə verilməklə ödənilir.

· Uduşların qaliblərə verilməsi media, audioyazı, foto və video çəkilişlərinin cəlb edilməsi ilə ictimai tədbir kimi təşkil edilə bilər. İştirakçı qalib olduğu və yazılı razılıq verdiyi halda Təşkilatçı ödəniş etmədən onun adını, foto/video şəkillərini və audioyazılarını audio, foto və video materiallarda və reklam materiallarında açıqlaya və istifadə edə bilər.